6-12 dekabr 2018-ci il

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsil islahatları

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk günlərdən ölkədə maarifin, təhsilin inkişafına böyük əhəmiyyət verirdi. Xalq təhsilini milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitinə böyük ehtiyac vardı. Məktəb islahatı sahəsində əsaslı məsələləri ətraflı müzakirə etmək, lazımi təkliflər hazırlayaraq, hökumətə təqdim etmək məqsədilə 1919-cu il avqustun 20-dən sentyabrın 1-dək Bakıda Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə Azərbaycan müəllimlərinin birinci qurultayı çağırılmışdır. Azərbaycan müəllimlərinin ali məclisi birinci realnı məktəbin (indiki Azərbaycan Dövlət İqtisad Universitetinin) binasında baş tutmuşdur. Qurultayın keçirilməsi üçün hökumətin 1919-cu il 2 avqust tarixli qərarı ilə Xalq Maarifi Nazirliyinin sərəncamına 35600 manat məbləğində vəsait ayrılmışdı. Qurultayda Azərbaycanın bütün bölgələrini və tədris müəssisələrini təmsil edən nümayəndələr iştirak edirdi. Qurultayı Türk Müəllimləri İttifaqının sədri Ağa bəy İsrafilbəyov açaraq qurultay iştirakçılarını onun məqsəd və vəzifələri ilə tanış etmişdi.



Qurultayın Xalq Maarifi Nazirliyinə təqdim etdiyi təkliflər əsasında, bütövlükdə, məktəb islahatı, xüsusilə təhsilin məzmunca milliləşdirilməsini əsas tutan proqram və dərsliklərin nəşri üzrə müvafiq layihə hazırlamaq məqsədilə Hökumət komissiyası yaradıldı. 1919-cu il noyabrın 7-də Maarif Nazirliyi yanında yaradılan islahat komissiyasına xalq maarifi nazirinin müavini Həmid bəy Şahtaxtlı (sədr), Nurməmməd bəy Şahsuvarov, Azad bəy Əmirov, Fətulla bəy Rzabəyov, Sultanməcid Qənizadə, Abdulla bəy Əfəndizadə, Sara xanım Yaqubova, Sara xanım Xuramoviç, Əhməd bəy Pepinov, Xədicə xanım Ağayeva, Məhəmməd ağa Şahtaxtlı, Cabbar bəy Orucəliyev və Saleh bəy Vəkilov daxil idilər. Komissiya qarşısında növbəti dərs ilinin əvvəlinə kimi məktəb islahatı, o cümlədən təhsilin məzmunu ilə bağlı məsələlərin həlli üzrə hökumət proqramını hazırlamaq vəzifəsi qoyulmuşdu. Cümhuriyyət hökumətinin devrilməsi nəticəsində komissiya öz işini başa çatdıra bilməsə də, həmin məsələlərin həlli üzrə müəyyən işlər görülmüşdü.

Azərbaycan Xalq Cümhuriyyətinin təhsilin inkişafı sahəsində qısa müddət ərzində həyata keçirdiyi mühüm tədbirlər sonralar ölkədə xalq maarifinin təşkilində mühüm rol oynadı. Müstəqil dövlətin fəaliyyəti dövründə ana dilində ibtidai və orta təhsilin bərqərar olması, ali təhsilli milli kadrların hazırlanması, ilk ali təhsil ocaqlarının açılması, azərbaycanlı gənclərin ali təhsil almaq məqsədilə xarici ölkələrə göndərilməsi, ilk kitabxanaların təşkili və digər məsələlər qismən də olsa, öz həllini tapdı.

Lakin aprelin 27-də Şimali Azərbaycanın Sovet Rusiyası tərəfin-dən işğalı maarif sahəsində nəzərdə tutulan bir çox tədbirlərin həyata keçirilməsini yarımçıq qoydu.